EU4Digital

# Elektron ticarət

Avropa İttifaqı, **EU4Digital** təşəbbüsü çərçivəsində Aİ və Şərq Tərəfdaşlığı ölkələri arasında elektron ticarət sahəsinin uzlaşdırılmasına dəstək verir. İttifaq həmçinin sözügedən tərəfdaşlıq ölkələri arasında ticarətin uyğunlaşdırılmasını dəstəkləyir.

**EU4Digital təşəbbüsünün elektron ticarət komandası** transsərhəd əməkdaşlığı dəstəkləyən bəzi fəaliyyətlər həyata keçirir. Elektron ticarətin aşağıdakı sahələrini uyğunlaşdırmaq diqqət mərkəzindədir:

## Transsərhəd elektron ticarət

Ticarət tərəfdaşları (məsələn, müəssisələr və hökumət) arasında **sənədlərin** çap **nüsxəsi olmadan** mübadiləsi.

**Elektron çatdırılma** kanalı vasitəsilə **Ermənistan və Ukrayna** arasında transsərhəd faktura məlumatlarının mübadiləsi ilə bağlı pilot layihənin həyata keçirilməsi.

## Elektron gömrük

İqtisadi operatorlar ilə gömrük orqanları arasında **gömrük məlumatlarının** sistematik və avtomatlaşdırılmış mübadiləsi.

**Belarus-Litva, Gürcüstan-Ermənistan** arasında **elektron gömrük** üzrə **texnoloji həllin** pilot layihə şəklində tətbiqi (SEED – Elektron məlumatların sistematik mübadiləsi).

## Elektron kommersiya

Kompüter şəbəkələrində aparılan **elektron** əməliyyatlar vasitəsilə malların satışı.

Şərq Tərəfdaşlığı ölkələri və Aİ arasında **elektron ticarətin asanlaşdırılması** üçün tövsiyələr.

Elektron kommersiyaya aid məlumatların avtomatlaşdırılmış mübadiləsi üçün virtual anbar platformasının pilot layihə şəklində icrası.

## Rəqəmsal nəqliyyat dəhlizi

Hava, avtomobil, dəmir yolu və dəniz nəqliyyatının bütün mərhələlərində **fasiləsiz məlumat mübadiləsi** üçün fiziki nəqliyyat dəhlizləri üzrə məlumat xidmətləri.

EU4Digital ekspertləri **Baltik və Qara dəniz arasında Rəqəmsal nəqliyyat dəhlizinin** yaradılması istiqamətində hazırlıq tədbirlərini müəyyənləşdirib.

EU4Digital təşəbbüsünün məqsədi, müxtəlif ölkələrin müəssisələri və dövlət orqanları arasında sənədlərin çap **nüsxəsi olmadan, avtomatik** və **vahid** elektron ticarətin prosesləri, rabitə, qanunvericilik və standartlar baxımından qurulması üçün bu sahənin uzlaşdırılmasını dəstəkləməkdir.

## Elektron ticarət nədir?

Elektron ticarət sənədlərin çap nüsxəsi olmadan transsərhəd ticarətə deyilir. Onlayn ticarət də daxil olmaqla ölkələr arasında mal və xidmətlərin idxalı və ixracının bütün dövrünü əhatə edir. Elektron ticarət, müəssisələr və hökumət arasında çap olunmamış sənəd istifadəsi mübadiləsinə imkan verərək mal və xidmətlərin alıcıya çatdırılmasını asanlaşdırır, transsərhəd ticarəti dəstəkləyir.

## Mühüm nailiyyətlər

2021-ci ilin iyul ayında qüvvəyə minən **elektron kommersiya haqqında qanunvericilikdə edilən mühüm** əlavə ilə Aİ sərhədlər üzərindən vergilərin ödənilməsi və malların daşınmasına təsir göstərib. Pilot layihə şəklində həyata keçirilən Elektron kommersiya virtual anbarı Aİ ilə ticarət həyata keçirən müəssisələrə dəstək istiqamətində ilkin addımlardan biridir.

**Milli elektron logistika sistemlərinin** yaradılması, habelə əsas logistika sənədlərinin rəqəmsallaşdırılması Şərq Tərəfdaşlığında rəqəmsal nəqliyyat dəhlizlərinin işini asanlaşdırmaq üçün vacib əhəmiyyət daşıyır.

**Qabaqcıl transsərhəd gömrük məlumat mexanizmlərinin** tətbiqi gömrük rəsmiləşdirilməsini asanlaşdırmaq və qanunsuz ticarətlə mübarizəni yaxşılaşdırmaq, habelə regional əməkdaşlıq üçün də olduqca vacibdir.

**Aİ-nin qabaqcıl təcrübələrinin** ötürülməsi, yəni Şərq Tərəfdaşlığı ölkələrində mühüm komponentlər (elektron hesab-fakturalar, elektron çatdırılma) olan “Connecting Europe” proqramı, transsərhəd məlumatların avtomatik, etibarlı, uyğunlaşdırılmış və vaxtında mübadiləsini təmin etmək üçün zəruridir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

https://eufordigital.eu/az/thematic-area/etrade/